***Sovetlər zamanında bütün qısma-boğmalara baxmayaraq, zəngin rus poeziyasında dünya ədəbiyyatı səviyyəsinə ucala bilən onlarla şair yetişdi: Boris Pasternak, Nikolay Tixonov, Aleksandr Tvardovski, Konstantin Simonov, Andrey Dementyev, Yevgeni Yevtuşenko, Andrey Voznesenski, Robert Rojdestvenski, Rimma Kazakova, Anatoli Peredreyev, Nikolay Rubtsov, Yuri Kuznetsov və başqaları. Bəndəniz çox götür-qoydan sonra Sovet quruluşu zamanı ad-san qazanmış otuza yaxın görkəmli rus şairinin hər birindən öz qabiliyyətinə və zövqünə uyğun 3 şeir seçərək, doğma Azərbaycan türkcəmizə çevirir, şeirlərin əsli ilə birlikdə ikidilli bir toplu hazırlamağa girişib. Burada hər bir şair haqda ətraflı bioqrafik məlumat da nəzərdə tutulub. Sağlıq olsun!..***

***Sevimli "Ədəbiyyat qəzeti"mizin dəyərli oxucularına böyük fərəh və tərcümənin necə qarşılanacağı intizarı ilə bu gün həmin topludan iki şairin 6 şeirini təqdim edirəm.***

***Dərin ehtiramlarla...***

***Abuzər TURAN (Bağırov)***